

# ƏSGƏR ORDUBADLI

## QƏHRƏMANLARA

Addımı qətiydi, inamı möhkəm,
Bu millət yolundan dönən deyildi.
Xalqın ürəyində otuz illik qəm,
Bax onlar bu qəmi qanıyla sildi.

Qarabağ qolların açmışdı o gün
Eşidib oğlunun ayaq səsini.
Nəğmə oxuyurdu qəhrəman üçün:
– Gəl ver erməninin, gəl ver dərsini.

Sanki dil açmışdı daşlar, qayalar,
Deyirdi – Yol verin qəhrəmanlara.
Təzim eyləyərək güllər, ağaclar
Alqış söyləyirdi o gün onlara.

İrəli gedirdi məğrur oğullar,
Düşmənin başına od ələyirdi.
Havada uçuşan sevincli quşlar
Onlara mahnılar bəstələyirdi.

Qəhrəman gedirdi düşmənə sarı,
Qırmaq istəyirdi zülmün zəncirin.
Azad eylədikcə o torpaqları
İlhamı artırdı məğrur şairin.

Susmuşdu qələmlər, tarix yazanlar.
Tarixi yazırdı silah səsləri.
Bir zaman tarixdən kafi alanlar
Çox gözəl yazdılar tarix dərslərin!

## İNSAN OĞLU

Ləkələnmiş vicdanları,
Ara vuran insanları;
Pul üstündə üsyanları
Görmədinmi, insan oğlu?

Getdi ömrün ən xoş günü,
Yola saldın toy-düyünü;
Qəm üstündə öz ömrünü
Sürmədinmi, insan oğlu?

Kef kök oldu – İçdin, yedin,
Coşdun, dünya mənim dedin;
Ac ağlarkən sən tox idin -
Bilmədinmi, insan oğlu?

Tükənmirdi pulun ardı,
O gün qış da ilk bahardı;
Yüz maşının, evin vardı -
Ölmədinmi, insan oğlu?

## ALLAHINDIR

İllərdir səmaya çəkirlər keşik -
Günəş Allahındır, ay Allahındır.
Biz baxıb ulduza sonsuz demişik -
Ona məxsus olan say Allahındır.

Rəbbinə əyandır həyatda hər iz,
Odur ən müqəddəs, odur ən əziz;
Neçə əsrlərlə dolmayan dəniz,
Axmaqla bitməyən çay Allahındır.

Tək ona məxsusdur bütün yaranan,
Nadandır, nankordur Rəbbini danan;
Ay Əsgər, unutma ruzi adlanan
Sənə göndərilən pay Allahındır...

## İTİB QALMIŞAM

Şeirim, sənətim çiçəyə dönüb,
Kimsəsiz torpaqda bitib qalmışam -
Vüsala yetməyən diləyə dönüb,
Ruhsuz ürəklərdə itib qalmışam.

Min yol incimişəm taleyə, baxta,
Gülüşlər mənasız, sevinclər saxta;
Sevgi vağzalına çıxdığım vaxtda
Məhəbbət qatarı ötüb, qalmışam.

Əsgər baxışlardan sevdaya gəlib,
Görüşə gəlməyən röyaya gəlib;
Dəstə torpağında dünyaya gəlib -
Mən gör haralarda gedib qalmışam...

## YAZAMMADIM

Yazdım neçə nəğməni
Bir gözəlin adına -
Yazdığım bir nəğmədə
adını yazammadım...

Gülüşünə gül dedim,
Saçlarına zər dedim;
Yanağında gül açıb
Sanki lalələr, dedim;
Hüsnünə Pəri, Leyla
Dilinə şəkər dedim -
Baldan şirin dodaqların
dadını yazammadım...

Yad bülbül nəğmə qoşub
Mən sevdiyim güləmi?
Yad ocağa, yad evə
Sən köçürsən, eləmi?
Sevgi kitabım yandı,
Sındı eşqin qələmi -
Ürəyimə bir özgə
qadını yazammadım...

Mən səni unutmadım
Getdiyin ana qədər;
Dəyərli yarım oldun,
Yadın olana qədər;
Sənə şeir də yazdım,
Xoşbəxt ol sona qədər -
Nədənsə o şeirdə
Qəlbimin atəşini,
odunu yazammadım...

## ŞAİR

Şair, bu yük ağırdır,
Çəkə bilirsənsə, çək.
Sənətkarın qələmi
Haqqı söyləsin gərək.

Şairlik – mətin olmaq,
Şeir – haqqı deməkdir;
Əgər doğru demirsə,
O söz kimə gərəkdir?
İstəyə bağlı deyil,
Sahibi var ilhamın;
Şöhrətə salma meyil,
Azalar ehtiramın.

Var - dövlətə əyilmə,
Dik dayansın qamətin;
Bax onda böyük olar
Mənliyin, şəxsiyyətin...

## MƏKTƏB İLLƏRİ

İllərin xatirəsi
gözlərimdə canlanır,
Bu hicranın odundan
qəlbim məşəltək yanır;
Yenə şirin xəyallar
çəkir keçmişə məni,
Mən gedirəm, səsləyir
məktəb görüşə məni;
Ayrılmaq istəmirəm,
fəqət yetib vədə, vaxt,
Bu gündən yollarımız
daha ayrı olacaq...

İtəcək qulağımdan
zənglərin həzin səsi,
Xatirəmdə qalacaq
xoş günlərin nəfəsi;
Uzaqlardan gələcək
eşqi müəllimlərin,
Unudulmaz bir anı
o qayğısız illərin;
O susqun partaların
önündə özgələr var,
Yad səslərlə dolacaq
həm dəhlizlər, otaqlar...

Uzun illər ötsə də,
dəyişsə də fəsillər,
Bizi əvəz etsə də
sondan gələn nəsillər;
Fəqət məktəb heç zaman
unutmayacaq bizi,
Yaddaşına həkk edib
bizim şən səsimizi...

Mehriban müəllimlər hanı o əziz dostlar?
Hərəsinin öz evi, indi öz ailəsi var...